Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 14 (2048) 18 fevral 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# MƏNİM ÖLMƏZ İDEALLARIM

**Planetimizin həyat şərtlərinin çətinləşmə mərkəzinə çevrildiyi bir zamanda, günü-gündən artan özbaşınaqları, hərcmərclikləri gördükcə, yaxın keçmişi və o keçmişdə yaşayan, elinə-obasına, millətinə duyğu və qayğıyla, sədaqət və vicdanla xidmət etmiş nəcib insanları xatırlayıram. İdealist düşüncəsi ilə özümü onlara bənzətmək istəyilə, özüm də bilmədən ayılıb gördüm ki, bu insanlar bütün vücuduma hopub, ölməz ideallarıma çevriliblər. Vətənimə, xalqıma bağlılığımın tarixi də, elə o insanları dərk edib başa düşdüyüm tarixlə eyni yaşdadır.**

İnsan var sağlığında yada düşmür, insan da var yoxluğunda unudulmur. Ahıllıq çağımın səksəkəli, sıxıntılı anlarında, yükləndiyim mənfi düşüncələrdən xilas olmaq üçün heç kəsə heçnə bildirmədən, əbədi dünyalarına xeyli müddətdir qovuşmuş o insanların məzarlarını ziyarətə yollanıram. Onların sayı o qədər də çox deyil. Bu gün, ilk olaraq onlardan ancaq bir neçəsi haqda "Ədalət" oxucuları ilə paylaşmaq istəyirəm. Ədəbə uyğun olaraq böyükdən kiçiyə doğru onları belə sıralandırdım.

Şahlıq rejimindən bezib ona arxa çevirən, atası və qardaşına qoşulub qədim cənub şəhərimiz Sərabdan Bakıya gələndə, balaca Mirzənin 7 yaşı yenicə tamam olmuşdu. Şərqdə ilk demokratik quruluşlu dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti yenicə təşəkkül tapmışdı. Erməni-bolşevik birləşmələri tərəfindən işğal edilmlş Bakı və bir çox torpaqlarımız xilaskar türk qardaşlarımızın köməkliyi ilə təzəcə azad edilmlşdi.

Kiçik Mirzə bu siyasi hadisələr burulğanında fabrik-zavod təhsili aldı. Zabrat və Balaxanı mədənlərində muzdurluq etdi. M.Qorkinin tövsiyyəsi



ilə Moskva və Peterburqda təhsilini davam etdirdi. Xalqına, millətinə təəssübkeşlik edən tanınmış ədib, siyasi və ictimai xadim kimi tanınan Mirzə İbrahimov oldu.

Mirzə müəllim vəzifələrdə pillə-pillə irəlilədikcə, hakimiyyətin yüksək təbəqələrində geniş səlahiyyətlər sahibi olmuş ermənilərin azəri türklərinə qarşı necə amansız, qərəzli siyasətlər yeritdiklərini açıq-aydın gördü. İçin-için yanıb yaxılırdı. Xüsusən, tarixə "neft oğruları" kimi adları düşən, ingilislər tərəfindən 1918-ci ilin sentyabrında güllələnən 26 Bakı komissarları arasından hiyləgərcəsinə sivrilib çıxan Anastas Mikoyan, Stalin hakimiyyətində 30 il ÜİK(b)P-nın Siyasi Bürosunun üzvü, Xruşşov hakimiyyəti dövründə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri olmuşdu. O, bu illər ərzində yüksək səlahiyyətlərindən istifadə edərək millətimizin başına gecədən qaranlıq günlər gətirmişdi. Məhz o, Milli hökumətimizin devrilməsindən tutmuş 1930-cu illərin represiyalarınadək, 1948-52-ci illərin qanunsuz köçürmələrinədək planları işləyib hazırlayan bir ideoloq olmuşdur. Stalin tərəfindən imzalanan bu sənədlər sayəsində torpaqlarımız zaman-zaman əlimizdən alınaraq Ermənistana birləşdirilmiş, millətimizin ziyalı təbəqəsinin qaymaqları Nargində, soyuq Sibir tayqalarında, Orta Asiyanın insan yaşamayan ilan mələyən səhralarında məhv edilmiş, soydaşlarımız pərən-pərən salınmışlar. Əlifbamız dəfələrlə dəyişdirilərək kütləvi savadsızlıq yaratdılar. Tariximiz yazılmadan səhifələri ağ qaldı. Bu qoca iblis ölən günə kimi türkə bəslədiyi qərəzli düşmənçilik hikkəsindən əl çəkmədi. Yüksək həlledici imkanından istifadə edərək, böyük kəşfinə görə Beynəlxalq Nobel mükafatına təqdim olunmuş akademik Yusif Məmmədəliyevə yolvuranlıq etdi, "bu hərbi sirrdir" deyə təqdimatda mənfi rəy verdi. Təbii ki, ona dəstək verənlər də oldu. "Arxalı köpək qurd basar" demişlər.

Daha sonralar, yenə Mikoyanın səyi nəticəsində, suya böyük ehtiyac duyulan Naxçıvanda, Arpaçayın yatağı dəyişdirilərək, tünel vasitəsilə Sevana axıdıldı. İkinci dünya müharibəsində ruslara cahanşümul qələbələr qazandıran, cəbhənin yanacağa olan tələbatının 70 faizini ödəyən Bakı şəhəri "Qəhrəman Şəhər" statusuna layiq olduğu halda unuduldu.

Ermənistanda dövlət işlərinin yalnız erməni dilində aparıldığı bir zamanda, zarobyanların, dəmirçyanların yüksək tribunalardan "Daşnaksütyunun" himnini oxuduqları bir vaxtda, Azərbaycanda beynəlmiləlçilik üstün tutuldu. Yüksək kürsülərdən rus dilində cıxış etməklə öz məharətimizi nümayiş etdirirdik.

Bütün bunları seyr edən Mirzə müəllim, qəfəsdəki pələngə döndü.



Daxilindəkiləri aşkara çıxarmaq üçün kiçicik məqam axtarırdı.Stalinin ölümündən sonra 1954-1958-ci illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Sədri seçilən Mirzə İbrahimov, ilk qərarlarının biri ilə respublikanın idarə və müəssisələrində bütün işlərin yalnız azərbaycan dilində aparılması haqda qorxmadan fərman verdi. Bu, o dövr üçün atom partlayışına bənzər bir partlayış idi. Ona cürət, qətiyyət və cəsarət tələb olunurdu. Bu fərman Mirzə müəllimin qəlbində uzun illərdən bəri yığılıb qalmış Babək, Səttarxan, Bağırxan, Şeyx Məhəmməd Xiyabani, Xosrov Ruzbeh və s. vətənpərvərlərin apardıqları mübarizələrin davamı və əks sədası idi. Bu üsyan bu günkü müstəqilliyimizə qarşı atılan ən böyük, möhtəşəm addımlardan biri idi.Bu üsyan daha əvvəl, 1941-45-ci illərdə M.İbrahimov, İranda yerləşdirilmiş sovet qoşunları tərkibində siyasi işçi olduğu vaxt özünü daha qabarıq şəkildə göstərmişdi. O vaxt Cənublu-Şimallı olaraq yarıya bölünmüş Azərbaycanımızın birləşərək Bütöv Azərbaycan olmağa böyük şansı olubmuş. Lakin Mikoyan kimi türkə qarşı qəddar münasibət bəsləyən Stalin rejimi buna razılıq verməmişdi. Müəllifinin adını unutduğum bir kitabdan oxumuşam ki, hətta M.C.Bağırov, yaranmış bu münbitlikdən Stalinin lazımınca istifadə etməməsindən hiddətlənərək, bütün vücudi ilə ağlayıbmış.

Mirzə İbrahimov 1942-1950-ci illər arası əvvəlcə Azərb.SSR Maarif naziri, sonra isə Azərb.SSR Nazirlər Soveti sədrinin müavini Işləyərkən,ermənilərin mətbuat və kitab çaplarında respublikamıza, miillətimizə qarşı apardıqları neçə-neçə təxribat xarakterli yazıları ifşa etmiş və bu haqda mütəmadi olaraq Mir Cəfər Bağırovu məlumatlandırarmış. Belə bir təxribatın tarixi haqda danışmaq üçün bir az tarixə müraciət etməli olacağıq.

1813-cü ildə Rusiya ilə İran arasında yarı bölünən Azərbaycanımız, 1923-cü ildə daha bir ədalətsizliklə qarşılaşdı. Qarabağ adlı tarixi torpağımız süni olaraq dağlıq və aran hissələrə parçalndı. Dağlıq hissədə "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı bir qurum yaradıldı. Əsası Qarabağ bəyləri tərəfindən qoyulan Xankəndi adı dəyişdirilərək, 1918-ci ildə qanımızı içən Şaumyanın şərəfinə Stepanakert adlandırıldı və Muxtar Vilayətin mərkəzi hesab edildi. Bundan ruhlanan erməni yazarları yalan və iftiralarla dolu, tarixi əsası olmayan "əsərlər" yazmağa başladılar. Belə bir "əsərlərdən" birini də 1888-ci ildə Moskvada doğulub, 1982-ci ildə Moskvada ölən Marietta Şaginyan adlı birisi də yazır. Özü Qarabağı görmədiyi halda kitabının adını "Dağlıq Qarabağ" qoyur. Mirzə İbrahimov bu haqda Mir Cəfər Bağırova məruzə edir. Tarixi saxtakarlıqlarla dolu olan bu kitab, M.C.Bağırovun işə qarışmasından sonra, tez bir zamanda SSRİ miqyasında satışdan çıxarılır. Bir müddətdən sonra Şaginyan "səhvlərini" düzəltməsi barədə Bağırova məktub yazır və kitabın yenidən çap olunması üçün razılıq verməsini xahiş edir. M.C.Bağırov isə erməni yazarın xahişini nəinki qəbul edir, hətta bir müddətdən sonra Şaginyanı Bakıya gələn rus incəsənət xadimləri arasında görəndə, onu təhqircəsinə otağından qovub...

***(Mir Cəfər Bağırovun daha bir fədakarlığı barədə yazımıza kiçik əlavə etmək istəyirəm).***

**1945-ci ildə, müharibədən dərhal sonra, Ermənistanın o vaxtkı MK katibi A.Harutunyan Moskvaya müraciət edir ki, Dağlıq Qarabağ əhalisinin əksəriyyəti erməni olduğu üçün onu Ermənistana birləşdirsinlər. Moskva M.C.Bağırovun rəyini öyrənmək üçün ona müraciət edir. M.C.Bağırov bildirir ki, əgər əhali çoxluğu əsas səbəbdirsə, onda Dərbənd və Məhərrəmkənd Rusiyadan, Vedi, Qarabağlar və Əzizbəyov rayonu Ermənistandan, Borçalı. Gürcüstandan alınaraq Azərbaycana qaytarılsın. Ancaq o zaman, Şuşa istisna olmaq şərtilə,Dağlıq Qarabağ Ermənistana birləşdirilə bilər. Bu tutarlı faktlar qarşısında aciz qalan Moskva, SSRİ-ni dağıdan Qorbaçova qədər arxivlərdə qalır**

**(ardı növbəti sayımızda)**

***Vaqif Məmmədov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR